Fədakarlıq və qəhrəmanlıq nümunəsi

Azərbaycan qadını kişilərlə bərabər çalışıb, yeri gələndə isə düşmənə qarşı mərdliklə döyüşüb. Elə bu baxımdan da el arasında bir deyim formalaşıb. "Aslanın erkəyi, dişisi olmaz". Qadınlarımız ictimai fəaliyyətlə yanaşı, hərbi-diplomatik sahədə də bacarıqlı olublar. Tarix Tomris, Nüşabə, Natəvan, Sara xatun, Nigar, Həcər və nəhayət, dövrümüzdə Hökumələr yetişdirib, onlar öz layiqli əməlləri və şücaətləri ilə tanınıblar.

Birinci Qarabağ müharibəsi zamanı qəhrəman Azərbaycan oğulları ilə çiyin-çiyinə döyüşən qadınlarımız da az olmayıb. Onlardan ikisi - Salatın Əsgərova və Gültəkin Əsgərova göstərdikləri şücaətə görə ölümlərindən sonra Milli Qəhrəman adına layiq görülüblər. 1961-ci ildə Bakı şəhərində doğulan **Salatın Əsgərova** ixtisasca kimyaçı olsa da, jurnalistika sahəsində çalışıb. Xain düşmənin 1988-ci ildən başlayan işğalçılıq siyasəti onu rahat buraxmırdı. "Molodyoj Azerbaydjana" qəzetində jurnalist kimi fəaliyyətə başlayan Salatın hərbi mövzularda yazılar yazaraq həqiqətləri dünyaya çatdırmağa çalışırdı. Bu mərd Azərbaycan xanımı bütün təhlükələri gözə alaraq dəfələrlə ermənilər yaşayan kəndlərə gedir, müharibənin ən qızğın nöqtələrindən reportajlar hazırlayırdı. 1991-ci il yanvarın 9-da Laçından Şuşaya qayıdarkən yolun 6-cı kilometrliyindəki Qaladərəsi kəndi yaxınlığında onun olduğu maşın yaxın məsafədən ermənilər tərəfindən şiddətli atəşə tutulur və qətlə yetirilir. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli Fərmanı ilə Salatın Əziz qızı Əsgərovaya ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Həlak olduğu kənd isə "Salatınkənd" adlandırılıb.

Azərbaycan Dövlət Tibb İnstitutunu bitirən **Gültəkin Əsgərova** 8 nömrəli təcili yardım stansiyasında əmək fəaliyyətinə başlasa da, Qarabağ müharibəsi zamanı düşmənin torpaqlarımızı işğal etməsinə biganə qala bilmir. Körpə qızını anasına verərək vətənin müdafiəsinə qalxır. Düşmən gülləsinə tuş gələn döyüşçülərə tibbi yardım göstərirdi. 1992-ci il aprelin 4-də könüllü cəbhəyə gedən Gültəkin Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. Hətta cəbhəyə gedən zaman özü ilə beş nəfər tibb bacısı da aparıb. Bu qadınlar vətənin müdafiəsi uğrunda sağlamlığını itirmiş yüzlərlə döyüşçüyə yardım ediblər. Torpaqların müdafiəsinə qalxan igid Azərbaycan qızı Şuşanın işğalından sonra Laçın və Qubadlının müdafiəsində iştirak etmişdir.

Bu o zamanlar idi ki, orduda pərakəndəlik hökm sürürdü. 1992-ci ildə Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi çalışdığı müddətdə Aranzəmin yüksəkliyinin ətəyində tibbi xidmət üçün yer ayrılır. Yaralı döyüşçülərə yardım etməklə kifayətlənməyən Gültəkin Xocalı rayonu Aranzəmin kəndində yüksəkliyə qalxaraq döyüşlərə qatılır və 1992-ci il 19 iyul tarixində şəhid olur. Vətənini həyatından çox sevən Gültəkin Əsgərovanın tabutunun üstündə Xarıbülbül çiçəyi qoyulub. Bakıda Şəhidlər Xiyabanında dəfn edilib. Ona Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli Fərmanı ilə ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adı verilib.

Zaman və məkan fərqinə baxmayaraq, göstərilən hər bir qəhrəmanlıq ilk növbədə vətən naminə xidmətdir. Kimliyindən, hansı sahədə çalışmasından asılı olmayaraq, vətəndaşın mövqeyi və peşəsinə sədaqəti onun nəyə qadir olduğunun sübutudur. Hər bir ekstremal vəziyyətdən çıxış isə özgüvən və inamın nəticəsidir. Bu xarakter isə yalnız güclü iradəyə, təmkin və səbrə malik insanlara xasdır. Onlar böyük bir kütləni öz arxaları ilə apara və yaxud istənilən istiqamətə yönləndirə bilirlər. Son günlər xalq olaraq böyük bir faciə yaşadıq. Lakin bu, dünyaya yeni bir ismarış oldu. İnsan övladı çox şeyi öz iradəsinə tabe edə bilər. Necə ki, Bakı-Qroznı istiqamətində uçan təyyarənin ekipajı ən çətin məqamda sərnişinlərə bir ümid bağışladı. Bəlkə də onlarla insanı elə o inam xilas etdi.

Bəli, daha bir qəhrəmanlıq dastanı təzəcə yola saldığımız ilin son günləri yazıldı. 2024-cü ilin son akkordları belə demək mümkünsə, faciədən qəhrəmanlığa gedən şərəfli bir yol xəritəsi cızdı. Ölümlə üz-üzə dayanmış onlarla insan bir Azərbaycan xanımının səsində təskinlik tapdı. Xilas yolunun yerdə olduğu bir zamanda göydən gələn əks-səda onları ovutdu: "Hörmətli sərnişinlər, narahat olmayın, hər şey yaxşı olacaq". Ölümü ilə ölümsüzlük qazanan Hökumənin peşə fəaliyyəti bir də onu sübut etdi ki, qəhrəmanlıq göstərmək üçün yerin, məkanın fərqi yoxdur. Yetər ki, o təpər, istək və mübarizə əzmi olsun. Azərbaycanın üçüncü qadın Milli Qəhrəmanı ötən il dekabrın 25-də Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olmuş **bələdçi Hökumə Əliyevadır.** Xatırladaq ki, "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhəri yaxınlığında qəzaya uğradı. Prezident İlham Əliyev qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Kşnyakin İqor İvanoviçə (ölümündən sonra), Kalyaninov Aleksandr Georgiyeviçə (ölümündən sonra) və Əliyeva Hökumə Cəlil qızına (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

8 avqust 1991-ci ildə Kəlbəcər rayonunda dünyaya gələn Hökumə Əliyeva iki yaşında erməni işğalı nəticəsində ailəsi ilə birlikdə kəndlərini tərk etməli olub. Əvvəlcə Bərdə rayonu Qaradəmirçi kəndində məskunlaşan ailə 1996-cı ildə Rusiyanın Volqoqrad vilayətinə köçür. Birinci sinifdən altıncı sinfə kimi burada təhsil alan Hökumə yenidən Azərbaycana, Gəncə şəhərinə köçməli olub. Orta təhsilini başa vurduqdan sonra yüksək balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. Daha sonra magistr və doktorantura pillələrində təhsilini davam etdirib. 2016-cı ildən Azərbaycan Hava Yollarında çalışan Hökumə Əliyeva nümunəvi işçi kimi hamının rəğbətini qazanıb. Məlum təyyarə qəzasında işinin öhdəsindən layiqincə gələrək sərnişinləri sakitləşdirməyə çalışıb, təmkinli olmağı tövsiyə edib, onları təlimatlandırıb. "Hər şey yaxşı olacaq", - deyən Hökumə son ana qədər vəzifə borcunu yerinə yetirərək sərnişinlərin təhlükəsizliyi üçün əlindən gələni edib. Hökumə Azərbaycan xalqının yaddaşında əsl fədakarlıq simvolu kimi qalacaq, onun şücaəti, təmkinliliyi, peşəkarlığı, güclü xarakteri gənc nəsil üçün əsl örnəkdir.

Onun səsi səmalarda əbədi yaşayacaq: "Hər şey yaxşı olacaq".

Ramidə YAQUBQIZI,
"Respublika".